Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

**“Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Qanununda dəyişikliklərin edilməsi barədə**

Azərbaycan Respublikasının 09.03.2021-ci il tarixli 279-VIQD nömrəli Qanunu ilə “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununda bəzi dəyişikliklər edilmişdir.

Belə ki, Azərbaycan Respublikasının ərazisində vergi yoxlamaları, maliyyə bazarları sahəsində aparılan yoxlamalar, gömrük auditi, müvafiq icra hakimiyyəti orqanı (özəl tibb fəaliyyətinin subyektlərində aparılan yoxlamalara və dərman vasitələrinin keyfiyyəti və təhlükəsizliyi qaydalarına riayət edilməsi ilə bağlı yoxlamalara münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamalara münasibətdə isə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi) tərəfindən özəl tibb fəaliyyətinin subyektlərində aparılan yoxlamalar, eləcə də dərman vasitələrinin keyfiyyəti, təhlükəsizliyi qaydalarına riayət edilməsi və qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamalar, yanğın nəzarəti, tikintiyə dövlət nəzarəti, təhlükə potensiallı obyektlərin və dağ-mədən sahələrinin təhlükəsiz istismarına nəzarət və radiasiya təhlükəsizliyinə nəzarət sahəsində yoxlamalar, “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı həmin Qanunla müəyyən edilmiş nəzarət orqanları tərəfindən həyata keçirilən yoxlamalar, habelə insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən yoxlamalar istisna olmaqla, sahibkarlıq sahəsində aparılan bütün yoxlamalar 2022-ci il yanvarın 1-dək dayandırılmışdır.

Digər bir dəyişikliyə əsasən, bu müddət başa çatdıqdan sonra sahibkarların yoxlamaların dayandırıldığı dövrdəki fəaliyyəti ilə bağlı yoxlayıcı orqanlar tərəfindən plan üzrə (növbəti) və plandankənar (növbədənkənar) yoxlamalar (yoxlamaların dayandırıldığı dövrdə aparılmasına icazə verilən yoxlamalar istisna olmaqla) aparıla bilməz.

Ətraflı məlumat üçün aşağıdakı linkdən istifadə edə bilərsiniz:

http://e-qanun.az/framework/47085